Vətən uğrunda fədakarlıq və cəsurluq nümunəsi

Azərbaycan xalqının tarixinə qanla yazılmış 20 Yanvar faciəsindən artıq 35 il keçir. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün xalqımıza qarşı həyata keçirdiyi dəhşətli təcavüz yaddaşlarda insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qalacaqdır. Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insan qətlə yetirildi, yaralandı və itkin düşdü. Bu bütün beynəlxalq və ölkə qanunlarına, insanlığa zidd işğalçılıq hadisəsi, təcavüz rəsmi Moskvanın ədaləti yox, hansısa daha qorxulu siyasi addımlar üçün erməni terrorunu, təxribatını və işğalını dəstəkləməsinin inkarolunmaz təsdiqi idi.

Yanvarın 19-dan 20-nə keçən gecə küçələrdə zirehli maşınlarda qoyulmuş səsgücləndiricidən xəbər verildi ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Bakıda fövqəladə vəziyyət elan olunub. Əslində bu elan edilməmiş hərbi-siyasi akt idi. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri Elmira Qafarova bəyanat verərək bildirdi ki, Bakıda fövqəladə vəziyyət respublika rəhbərliyinin razılığı olmadan elan edilib. Bunun məsuliyyəti onun tətbiq edənlərin üzərinə düşür. Şəhərin hər yerində isə pulemyot və avtomatlardan atəş səsləri eşidilirdi. Xalq qorxu hissini itirmişdi. Hamı küçəyə axışırdı. Tbilisi prospekti qan içində idi, on birinci qızıl ordunun heykəlinin yanında təqribən 15-20 kvadratmetrlik qanlı gölməçə var idi. Bir çox yaşayış və inzibati binalarda güllə "seli" öz təcavüzkar imzasını atmışdı. Hər addımda zorakılığın izləri, qanlı ləkələr, tək ayaqqabı, soyuqdan qorunmaq üçün müxtəlif bürüncəklər qızıl ordunun qəddar və barbarlığından xəbər verirdi. Bir neçə saat keçməmiş bütün bu qanlı izlərin üzəri Azərbaycanın azadlıq uğrunda dinc mübarizəsinin rəmzinə çevrilən qan qırmızı qərənfillərlə örtüldü. Bu o demək idi ki, xalq öz mücadiləsini davam etdirəcək, şəhid və qurbanlarını zaman-zaman yaşadacaq və ədalətsizliklə heç bir zaman barışmayacaq, tökülən hər damla qandan yeni - onlarla, minlərlə şəhid doğulacaq.

Həmin gün yer-göy qan ağlayırdı. Güllə yağışı altında hamı öz doğmasını, azadlıq mübarizəsinə qoşulan cəsur oğulları, Həcər qeyrətli qız-gəlinləri axtarırdı. Bu ağır faciənin nə ilə bitəcəyini ən çox Moskvada oturub, ermənipərəst niyyətləri ilə hökm verən Mixail Qorbaçov bilirdi...

20 Yanvar faciəsində qəlbində vətən yanğısı olan insanlardan biri - 26 yaşlı aspiranturada təhsilini davam etdirən **Yusif Sadıqov** da var idi. Gecə qaranlığında o xəstəxana, o yer qalmadı ki, Yusif axtarılmasın. Elə bil Tanrının belə bir bəndəsi yox imiş. Çox axtarışdan sonra üzüntülü bir xəbər gəldi ki, sovet hərbçilərinin açdığı aramsız atəş nəticəsində Yusif Sadıqov faciəli surətdə şəhid olmuşdur.

Yusif elm-təhsil fədaisi idi. Lap uşaqlıqdan elmi biliklərlə mükəmməl yiyələnmiş, məktəbdə pedaqoji kollektivin sevimlisinə çevrilmişdi. O, Qərbi Azərbaycanda Çəmbərək rayonunun Cil kəndində dünyaya göz açmışdı. Uşaqlıq illərini Göyçə gölünün nəğməli sahillərində keçirmiş, təbiətin vurğunu olmuşdur.

1988-ci ildə Qərbi azərbaycanlıların atababa torpaqlarından deportasiya edilməsi Yusifin qəlbini didib-parçalayırdı. Daşnakların xəyanətinə dözə bilmirdi.

O dəhşətli gecədə Yusif neçə-neçə yaralılara kömək etdi, sovet hərbçilərinin tanklardan atılan aramsız atəşlərindən qorxmadı. Öz gənc ömrünə qəhrəmanlıq salnaməsi yazdı, xalqının cəsur oğluna çevrildi...

Biz 20 Yanvar faciəsinin 35 illiyi ərəfəsində Yusifin bacısı **Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini, professor Sayalı Sadıqova** ilə görüşüb söhbət etdik. O, şəhid qardaşı haqqında ürək sözlərini belə ifadə etdi:

- 20 Yanvar müqaviməti faciə deyil, XX əsrdə dünya xalqlarının azadlıq uğrunda kütləvi mücadiləsi tarixində ən parlaq mübarizə səhifələrindəndir. 20 Yanvarda Azərbaycan xalqı öz varlığını bir daha dünyaya tanıtdı, imzasını şəhid və qurbanların qanı ilə tarixə yazdı. 20 Yanvar öz siyasi-hüquqi qiymətini 1993-cü ildə ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyev respublika rəhbərliyinə qayıtdıqdan sonra aldı. Ulu öndər bu barədə 1994-cü il yanvar ayının 5-də fərman verdi.

Mən qürur hissi keçirirəm ki, qardaşım Yusif Sadıqov 1990-cı ilin yanvarında sovet qoşunları Azərbaycanın paytaxtı Bakıda törətdikləri amansız qırğında qorxmamış, sinəsini yaylım atəşinə sipər etmiş, fani dünyadan azadlıq aşiqi kimi köçmüş, öz ölümü ilə ölümsüzlüyə qovuşmuşdur...

Yusifin qəlbi Qərbi Azərbaycan, yurd eşqi ilə döyünürdü. Əminliklə deyə bilərəm ki, günlərin bir günündə cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində Qərbi azərbaycanlılar qəribsəmiş yurd yerlərinə dönəcəklər. Cil kəndində Yusifin büstü ucaldılacaq...

Qədir ASLAN,
"Respublika".